

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 75 (23.487)

*20 may 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışında iştirak ediblər.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma mərkəzdə yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, Heydər Əliyev prospektində yerləşən 3 saylı DOST mərkəzi paytaxtın Nizami, Suraxanı və Sabunçu rayonlarının sakinlərinə xidmət göstərəcək. Mərkəzdə əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcək. Burada 130 nəfərdən çox işçi və "Könüllü DOST" proqramı üzrə 50 könüllü çalışacaq. Mərkəz gün ərzində 500, il ərzində isə, ümumilikdə, 150 mindən artıq vətəndaş qəbul edə biləcək.

Yeni istifadəyə verilən DOST mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.




## 2020-ci ilin yanvar-aprel aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2020-ci ilin yanvar-aprel aylarında 743 milyon 26 min 800 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz artaraq 1615,3 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 337 milyon 363 min manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2020-ci ilin yanvar-aprel aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 290 milyon 340 min 100 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,8 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 274 milyon 817 min 700 manatı və ya 94,7 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2020-ci ilin yanvar-aprel aylarında 42 milyon 248 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 8060,3 ton, süd istehsalı 26090,4 ton olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,5 faiz, süd istehsalı isə 1,6 faiz artmışdır.

* * *

2020-ci ilin yanvar-aprel aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 17 milyon 652 min 700 manat olmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 2,2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 14 milyon 71 min 600 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 2 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2020-ci ilin yanvar-aprel aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 52 milyon 113 min 800 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,2 dəfə çoxdur. Verilmiş kreditlərin 7 milyon 826 min 800 manatı və yaxud 15 faizi qısamüddətli, 44 milyon 287 min manatı və yaxud 85 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 may 2020-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 86758-ə çatmışdır ki, bunun da 76084-ü və ya 87,7 faizi aktiv hesablardır. 2020-ci ilin yanvar-aprel aylarında açılmış 11914 bank hesabının 11912-si aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 may 2020-ci il tarixə 1289-a çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2020-ci ilin yanvar-aprel aylarında 122 milyon 804 min 100 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 98 milyon 810 min ABŞ dolları təşkil etmiş, 74 milyon 815 min 900 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2020-ci ilin yanvar-mart aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 519,3 manat təşkil etmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 19,8 faiz çoxdur.

* * *

1 aprel 2020-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3481 nəfər artaraq 460 min 216 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Maliyyə Nazirliyində "Elektron nəzarət portalı"nın təqdimatı olub



Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini-Maliyyə naziri Səbuhi Məmmədov bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə açaraq "Elektron nəzarət portalı"nın istifadəyə verilməsinin tikinti-quraşdırma işlərinin dəyərinin hesablanması baxımından mühüm əhəmiyyət kəsb etməsindən danışıb. Qeyd edilib ki, portalın yaradılmasında məqsəd muxtar respublikada həyata keçirilən tikinti-quraşdırma işlərində şəffaflığın və qiymət intizamına nəzarətin daha effektiv və çevik şəkildə təmin edilməsindən ibarətdir.

Sonra Maliyyə nazirinin müavini Həsən İsmayılov çıxış edərək muxtar respublikada həyata keçirilən tikinti-quruculuq işlərinin maliyyələşməsində aparılan nəzarət tədbirləri barədə danışıb. Nazir müavini qeyd edib ki, nazirlik 2017-ci ildən Dövlət satınalmalarına nəzarət sektoru vasitəsilə muxtar respublikada aparılan tikinti-quruculuq işlərinin maliyyələşdirilməsinə nəzarəti həyata keçirir. 2019-cu ildə aparılan nəzarət tədbirləri nəticəsində büdcə vəsaitləri hesabına satın alınan inventar, avadanlıqların bazar dəyəri ilə realizə edilməsinə və 2 milyon 800 min manatdan çox vəsaitə qənaət edilməsinə nail olunub.

Həyata keçirilən nəzarət tədbirləri çərçivəsində tikinti-quruculuq işlərinin dəyərinin ödənilməsi üçün sənədlərdə bəzən bilərəkdən, bəzən isə texniki səhvliklər ucbatından artıq vəsaitlərin sərf olunduğunu, qiymət intizamına riayət edilmədiyini vurğulayan Həsən İsmayılov təkcə 2019-cu ilin son aylarında aparılan yoxlama ilə 260 min manatdan çox maliyyə vəsaitinin əsassız xərcləndiyinin aşkarlanmasını və müvafiq quruma həmin məbləğdə vəsaitlərin təqsirli şəxslərdən tutularaq bərpa edilməsi üçün məktub ünvanlandığını bildirib.

Daha sonra qeyd edilən nöqsanların profilaktikası məqsədilə hazırlanmış "Elektron nəzarət portalı"nın tətbiqi, sistemin iş prinsipi və üstünlükləri barədə iştirakçılara ətraflı məlumat verilib. Bildirilib ki, portal Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş 2020-ci il üçün "Dövlət müəssisə və təşkilatları tərəfindən dövlət büdcəsi vəsaiti hesabına alınan tikinti, santexnik və elektrik işlərinin smeta qiymətləri kitabı"nda əks olunmuş qiymətlərin elektron versiyası ilə təchiz edilib. Mal-material, iş və xidmətlər "forma 2" sənədlərinə yalnız bazaya müəyyən edilmiş qiymətə daxil edilə biləcək ki, bununla həm qiymətinə baxılmamış, həm də təsdiq edilmiş, lakin təhrif olunaraq və ya texniki səhvlik ucbatından yüksək qiymətə yazılmış (əvvəllər belə faktlar olmuşdur) mal-material, iş və xidmətlərin mövcudluğu riski sıfra endiriləcəkdir.

Vurğulanıb ki, sistemin tətbiqi hər hansı tikinti obyektinə, hətta tikinti obyektində bölmələrə maliyyə vəsaitlərinin sərfi, sərf olunan tikinti materiallarının sayı, əlavə edilməsi zəruri olan yeni mal-materialların siyahısı və digər məsələlər haqqında mükəmməl və dəqiq statistik hesabatların əldə olunmasına şərait yaradacaqdır. Artıq 2020-ci il üçün tikintisi nəzərdə tutulan və həyata keçirilən bütün obyektlər nəzarət portalına əlavə edilmişdir. Bununla real vaxt rejimində tikintisi aparılan obyektlərə çəkilən xərclər, tikinti materiallarının istifadəsinə dair ani hesabatlar almaq mümkündür.

Qeyd edək ki, portala yalnız Naxçıvan Muxtar Respublikasından daxil olmaq mümkündür və sistemə daxil olmasına icazə verilən bütün subyektlər Maliyyə Nazirliyi tərəfindən istifadəçi adı və şifrə ilə təmin edilib. Sistem mümkün kiberhücumlardan tam mühafizə edilir.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Yaz əkinləri davam edir

Muxtar respublika iqtisadiyyatında mühüm sahələrdən biri olan əkinçilik məhsulları istehsalında Kəngərli rayonunun özünəməxsus payı var. Torpaq mülkiyyətçiləri hərtərəfli dövlət qayğısından səmərəli istifadə edərək daxili bazarın qorunmasında səy və bacarıqlarını əsirgəmir, qazandıqları uğurları ildən-ilə artırırlar.

Rayonda taxıl, kartof, dənli-paxlalı bitkilər, tərəvəz və bostan məhsulları əkinçiliyin əsas sahələri hesab olunur. Bölgənin torpaq mülkiyyətçiləri hər il bu sahələrdən xeyli gəlir əldə edir, yaşayış səviyyələrini yüksəldirlər. Cari ildə də yazın ilk günlərindən sahələrə çıxaraq əkin mövsümünü optimal müddətdə başa vurmağa çalışan zəhmətkeşlər az deyil.

Rayon İcra Hakimiyyətindən verilən məlumata görə, bu günədək 275 hektarda şum qaldırılıb, 265 hektarda yazlıq əkinlər keçirilib. Bunun 50 hektarını yazlıq arpa, 8 hektarını kartof, 5 hektarını tərəvəz, 1 hektarını paxlalılar, 8 hektarını isə bostan bitkiləri təşkil edir. Əkinçiliyin digər sahələri də diqqət mərkəzində saxlanılıb. Belə ki, 75 hektarda qarğıdalı, 8 hektarda günəbaxan, 23 hektarda tütün, 87 hektarda isə təzə yonca əkilib. Eyni zamanda payızda əkilmiş taxıl sahələrində alaq otlarına qarşı kimyəvi mübarizə tədbirləri aparılır.

Yaz əkinlərinin davam etdirildiyi rayonda torpaq mülkiyyətçiləri mövsümü uğurla başa vurmaq üçün səy və bacarıqlarını əsirgəmirlər.

**Babək İSMAYILOV**

*Dövlət proqramı necə icra olunur*

# Naxçıvanda əhalinin məşğulluğunun artırılması ilə bağlı tədbirlər davamlı xarakter daşıyır

***Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında əhalinin məşğulluğunun təminatı xüsusi yer tutur. Qazanılan nailiyyətlərin miqyasının ildən-ilə genişlənməsi əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bərabər, bu istiqamətdə zəruri tədbirlərin uğurla reallaşmasına da yeni imkanlar açır. Muxtar respublikada da mövcud iqtisadi reallıqlar nəzərə alınmaqla əmək ehtiyatlarının əmək bazarına uyğunlaşdırılması və işaxtaranların sosial müdafiəsi diqqət mərkəzindədir. Bu sahədə həyata keçirilən tədbirlərin davamlılığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" xüsusi yer tutur.***

Dövlət proqramında 36 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuşdur. 2020-ci ilin ötən dövründə qarşıya qoyulan vəzifələrin icrası sahəsində tədbirlər davam etdirilmiş, muxtar respublikanın əmək bazarı təhlil olunmuş, boş iş yerlərinin müəyyənləşdirilməsi məqsədilə vergi orqanlarında qeydiyyatdan keçmiş fiziki və hüquqi şəxslər haqqında məlumatlar toplanılmış, müəssisələr üzrə boş iş yerləri məşğulluq mərkəzləri tərəfindən qeydiyyata alınmışdır. Dövlət maliyyə dəstəyi hesabına 107, özəl investisiya qoyuluşu hesabına 19 olmaqla, ümumilikdə, 126 yeni iş yeri açılmışdır. Eyni zamanda 495-i dövlət maliyyə dəstəyi, 75-i özəl investisiya qoyuluşu hesabına olmaqla, 570 yeni iş yerinin açılması istiqamətində də işlər davam etdirilmişdir. Nəticədə, 2020-ci ilin ötən dövründə 569 nəfər məşğulluq xidməti orqanları tərəfindən qeydiyyatda olan vakant iş yerlərinə göndərilmişdir. İşə göndərilənlərin 168-ni gənclər, 165-ni qadınlar, 10-nu isə sağlamlıq imkanları məhdud şəxslər təşkil etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən elan edilmiş müsabiqələr vasitəsilə 135 nəfər müvafiq vəzifələrə təyin olunmuşdur. Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası istiqamətində hərbi xidmətdən tərxis olunan 5 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin edilmişdir.



Davamlı iqtisadi inkişafın təmin edilməsində kiçik və orta biznesin əsas hərəkətverici amilə çevrilməsi iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Muxtar respublikamızda son illərdə kiçik və orta sahibkarlığın inkişafı, həmçinin yeni iş yerlərinin yaradılması üçün dövlət maliyyə dəstəyinin göstərilməsi məqsədilə kompleks tədbirlər həyata keçirilməkdədir. Ötən dövrdə də bu tədbirlər davam etdirilmiş, Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına müvəkkil kredit təşkilatları tərəfindən Naxçıvan şəhəri üzrə 1 hüquqi şəxsə 3 milyon 200 min manat, 1 fiziki şəxsə 26 min manat, Şərur rayonu üzrə 10 fiziki şəxsə 121 min 400 manat, Babək rayonu üzrə 8 fiziki şəxsə 75 min manat, Ordubad rayonu üzrə 3 fiziki şəxsə 19 min manat, Culfa rayonu üzrə 2 fiziki şəxsə 9 min manat, Şahbuz rayonu üzrə 2 fiziki şəxsə 26 min manat, Kəngərli rayonu üzrə 4 fiziki şəxsə 84 min manat, Sədərək rayonu üzrə 1 fiziki şəxsə 8 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Bu sahədə banklar və digər kredit təşkilatları tərəfindən 7 milyon 260 min manat sənaye, 3 milyon 592 min manat kənd təsərrüfatı, 1 milyon 251 min manat ticarət, 30 min manat tikinti, 723 min manat nəqliyyat və rabitə sahəsinə olmaqla, ümumilikdə, 12 milyon 856 min manat həcmində kreditlər verilmişdir.

Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Yerli istehsalın inkişaf etdirilməsi isə daxili bazarın qorunmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Dövlət proqramının icrası istiqamətində xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri də məhz muxtar respublikada məşğulluğun artırılması məqsədilə yerli resurslara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin yaradılması üçün müvafiq tədbirlərin həyata keçirilməsidir. Bu məqsədlə ötən dövrdə Sahibkarlığın İnkişafı Fondunun kredit vəsaiti və özəl investisiya qoyuluşu hesabına 37 layihənin yaradılması başa çatdırılmış, 47 layihənin yaradılması istiqamətində işlər davam etdirilmişdir. Dövlət maliyyə dəstəyi hesabına Naxçıvan şəhərində qaynaq çubuğu, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, unlu-qənnadı məmulatları istehsalı sahələrinin yaradılması, Babək rayonunda meyvə-tərəvəz məhsullarının qablaşdırılması, meyvə araqlarının istehsalı, Kəngərli rayonunda mebel istehsalı sahələrinin genişləndirilməsi, eləcə də özəl investisiya qoyuluşu hesabına 3 müəssisənin yaradılması başa çatdırılmışdır.

Muxtar respublikada istehsal olunan keyfiyyətli məhsullar ölkəmizdə və dünyada brend məhsul kimi qəbul olunur. Bu sahədə ailə təsərrüfatlarının da rolu danılmazdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Muxtar respublikada ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi uğurlu nəticələrin qazanılmasına və əhalinin məşğulluğunun təmin olunmasına, ən əsası isə istehsal olunan məhsulların keyfiyyətinin və çeşidinin artmasına səbəb olmuşdur".***





Bu gün muxtar respublikada yaradılan çoxsaylı ailə təsərrüfatları əhalinin rifah səviyyəsinin yüksəlməsinə öz töhfəsini verən kiçik təsərrüfat birlikləri kimi diqqəti cəlb edir. Ailə təsərrüfatlarının üstün xüsusiyyətləri ondan ibarətdir ki, kənd yerlərində məskunlaşan ailələrin istehsal etdikləri məhsullarla həmin ailələrin həm öz istehlak tələbatlarının müəyyən bir qismi ödənilir, həm də artırılan təsərrüfat məhsullarını satmaq və ya dəyişdirmək yolu ilə gəlir əldə edilir. Ailə təsərrüfatlarının gələcəkdə kiçik sahibkarlıq subyektlərinə çevrilməsinin stimullaşdırılması sahəsində dövlət maliyyə dəstəyinin göstərilməsi önəmli rol oynayır. Ötən dövrdə ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, əhalinin məşğulluğunu artırmaq sahəsində əlavə imkanlar yaratmaq məqsədilə 21 təsərrüfata 155 min 500 manat məbləğində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Məşğulluq siyasətinin mühüm istiqamətlərindən biri də, şübhəsiz ki, muxtar respublikanın kəndlərində əhalinin məşğulluğunun artırılmasıdır. Dövlət proqramı təsdiq edildiyi gündən bu sahədə də mühüm nailiyyətlər əldə olunmuşdur. Belə ki, kəndlərdəki xidmət mərkəzlərində fəaliyyət göstərən bərbərxana, qadın gözəllik salonu və dərzi sexlərinin kadrlarla təminatı istiqamətində işlər görülmüş və bu işlər davam etdirilməkdədir. Ötən dövrdə də qeyd olunan sahələrdə vakansiyalara uyğun çalışmaq istəyənlər müəyyənləşdirilmiş, Naxçıvan Regional Peşə Tədris Mərkəzində müvafiq peşələr üzrə kurs təşkil olunmuş, xidmət mərkəzlərində 3 bərbər, 5 bərbər-manikürçü və 1 dərzi olmaqla, ümumilikdə, 9 nəfər işlə təmin edilmişdir.

Peşə təhsili rəqabətqabiliyyətli iqtisadiyyatın və inkişaf etmiş cəmiyyətin təşəkkül tapmasında böyük əhəmiyyətə malikdir. Muxtar respublikamızda da iqtisadiyyatın inkişafı və sosial bərabərliyin təmin edilməsinə nail olmaq üçün bu sahəyə xüsusi önəm verilir. Dövlət proqramının icrası ilə bağlı əmək bazarının tələblərinə uyğun peşə hazırlığı təşkil edilərkən xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması diqqətdə saxlanılır, milli və xalq tətbiqi sənəti növlərində kurslar keçirilir. Ötən dövrdə peşə təhsili müəssisələrində turizm agenti, qazanxana maşinisti, gözətçi, bərbər, bərbər-manikürçü, dərzi, arıçı, kompüter istifadəçisi peşələri üzrə təşkil edilmiş 10 kursu 232 müdavim bitirmişdir. Milli və xalq tətbiqi sənəti növləri üzrə peşə kurslarının təşkili məqsədilə xalçaçı kursuna 19 nəfər cəlb edilmişdir. Kənd əhalisinin xalq yaradıcılığı sahəsinə marağının artırılması diqqət mərkəzində olmuş, Şərur rayonunun Cəlilkəndində yerləşən "Buzxana" Kompleksində xalçatoxuma sahəsinin fəaliyyəti davam etdirilmişdir. Mədəniyyət evləri və klubların 14 əməkdaşı üçün xalçaçılıq sahəsi üzrə 3 aylıq peşə kursu təşkil edilmişdir. Ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin peşə seçiminə köməklik məqsədilə onlara əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatların verilməsi üçün 1108 şagirdlə görüşlər keçirilmişdir.

Dövlət proqramının əsas istiqamətlərindən biri də sosial cəhətdən həssas əhali qruplarının yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsidir. Bu kateqoriyadan olan şəxslərin əmək bazarına inteqrasiyasının dəstəklənməsi ilə bağlı tədbirlər davam etdirilməkdədir. Ötən dövrdə Naxçıvan şəhəri, Babək, Ordubad, Culfa rayonları üzrə dövlət və özəl müəssisələrdə sosial müdafiəyə xüsusi ehtiyacı olanların, işə düzəlməkdə çətinlik çəkənlərin işlə təmin olunması üçün kvota yerləri ayrılmış, bu kateqoriyadan olan 2 nəfər kvota yerlərinə işə göndərilmişdir. Eyni zamanda sosial layihələrin reallaşdırılması da mühüm əhəmiyyət kəsb etmiş, özünüməşğulluğun təmin edilməsi, fərdi təsərrüfatların yaradılması, inkişaf etdirilməsi üçün 87 aztəminatlı ailəyə müvafiq köməklik göstərilmiş, əvvəlki dövrlərdə özünüməşğulluq proqramına cəlb edilmiş 2 nəfərə yaradılmış təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirdiyi üçün kənd təsərrüfatı avadanlığı verilmişdir. Culfa rayonunda sağlamlıq imkanı məhdud 1 fiziki şəxsə tingçilik təsərrüfatının yaradılması məqsədilə 4 min manat, Sədərək rayonunda sosial qayğıya ehtiyacı olan 1 fiziki şəxsə meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi məqsədilə 8 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Sağlamlıq imkanları məhdud və evdar qadınların müvəqqəti məşğulluqlarının təmin edilməsi məqsədilə sosial-yönümlü layihələrin icrası davam etdirilmiş, 8 sağlamlıq imkanı məhdud qadın səməni becərilməsi ilə bağlı sosial əhəmiyyətli haqqıödənilən ictimai işlərə cəlb edilmişdir.

Qeyri-formal məşğulluq müəssisələrdə əmək məhsuldarlığına, keyfiyyətli istehsal və xidmət prosesinə ciddi zərər vurur. İşçi işəgötürənlə əmək müqaviləsi bağlamadan, qeyri-formal şəkildə bu və ya digər fəaliyyəti yerinə yetirməklə özünü əmək və sosial təminat hüquqlarından məhrum etmiş olur. Dövlət proqramının icrası sayəsində əmək müqavilələrinin bağlanmasına nəzarət edilir və yeni əmək fəaliyyətinə başlayanların sosial sığorta şəhadətnaməsi ilə təmin edilməsinə diqqət yetirilir. Ötən dövrdə 8 sahibkarlıq obyektində əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işə cəlb edilən 9 işçi aşkar olunmuşdur ki, həmin işəgötürənlərə qanunvericiliyin tələbləri izah olunaraq xəbərdarlıq edilmişdir. İlk dəfə əmək fəaliyyətinə başlayan 430 nəfərin sosial sığorta şəhadətnaməsi ilə təmin edilməsi üçün sifariş verilmişdir.

Sağlam və təhlükəsiz əmək şəraiti işçi amilinə diqqət və qayğının ifadəsi olmaqla, iş yerlərində işgüzar fəallığın, məhsuldarlığın yüksəldilməsi, nəticədə, iqtisadi inkişafın təmin edilməsi baxımından olduqca vacibdir. Əməyin mühafizəsi insanın əmək prosesində təhlükəsizliyini, səhhətinin və iş qabiliyyətinin qorunmasını təmin edən tədbirlər sistemidir. İşəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət olunması məqsədilə muxtar respublika üzrə, ümumilikdə, 22 obyektdə yoxlama aparılarkən fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 27 işçi həmin vasitələrlə yerində təmin edilmiş, 14 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmışdır.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələrinin bağlanması işçilərin sağlam əmək şəraitində işləmək hüququnun təmin olunmasına xidmət edir. Dövlət proqramında nəzərdə tutulan tapşırığın icrası məqsədilə ötən dövrdə bu sahəyə nəzarət davam etdirilmiş, 2 min 866 işçinin sığorta müqaviləsi yenilənmişdir.

Muxtar respublikada işaxtaranların işlə təmin olunmaları məqsədilə boş iş yerləri haqqında və məşğulluq sahəsində görülmüş işlərə dair məlumatların verilməsi üçün kütləvi informasiya vasitələrinin imkanlarından istifadə olunması da diqqətdə saxlanılmış, 24 qəzet materialı çap olunmuş, 2 radio materialı yayımlanmış, Naxçıvan Dövlət Televiziyasında 11 xəbər materialı və 3 veriliş efirə təqdim olunmuşdur.

*Qeyd olunanlar onu deməyə əsas verir ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası bu sahədə daha böyük uğurların qazanılmasına imkan verəcəkdir.*

**"Şərq qapısı"**

## Onlayn konfrans olub



*Naxçıvan Dövlət Universitetində 2019-2020-ci tədris ilində Tələbə Elmi Cəmiyyətinin (TEC) xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekununa həsr olunmuş onlayn elmi konfrans keçirilib.*

İclası universitetin rektoru Elbrus İsayev açaraq TEC-i gələcəyin magistrlərinin, elmi tədqiqatçılarının yetişməsində, tələbələrin elmi fəallığı və dünyagörüşünün artırılmasında mühüm rol oynayan bir cəmiyyət kimi səciyyələndirib.

Vurğulanıb ki, düzgün qiymətləndirilən ən yaxşı TEC işi kütləvi informasiya vasitələrində və universitetin "Elmi əsərlər" jurnalında dərc olunmaq üçün göndərilməlidir.

"2019-2020-ci tədris ili üçün TEC-in yekun hesabatı və qarşıda duran vəzifələr haqqında" məruzə edən universitet TEC-in sədri, Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə V kurs tələbəsi, Prezident təqaüdçüsü Bətulə Əlizadə bildirib ki, TEC-in başlıca vəzifəsi tələbələrdə elmə olan marağı düzgün istiqamətləndirmək və inkişaf etdirməkdən ibarətdir.

Vurğulanıb ki, hər zaman olduğu kimi, cari tədris ilində də təşkilatın iş planının tərtib olunması və tələbələrlə əlaqələrin gücləndirilməsi kimi məsələlərin həllinə baxılıb, fakültələr üzrə cəmiyyətin sədrləri tələbələrlə xüsusi iş aparıb. Qeyd edilib ki, TEC xətti ilə 366 tələbə elmi-tədqiqat işi yazıb.

Tibbi profilaktika ixtisası üzrə IV kurs tələbəsi Süreyya Pərvəreşin, Dünya iqtisadiyyatı ixtisası üzrə II kurs tələbəsi Səma Bayramovanın, Energetika ixtisası üzrə III kurs tələbəsi Arif Qurbanovun çıxışları dinlənilib.

Memarlıq və mühəndislik fakültəsinin dekanı, professor Cavanşir Zeynalovun elmi rəhbəri olduğu "Kompüter rəqəm idarə etməsi" mövzusunda elmi-tədqiqat işi təcrübi əhəmiyyətilə xüsusilə seçilib.

Konfrans 10 bölmə üzrə işini davam etdirib.

**Səadət ƏLİYEVA**

## Onlayn seminar keçirilib



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən hamiliyə götürülmüş Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin İqtisadiyyat ixtisasının tələbələri ilə "İdeyadan başlanğıca" devizi altında onlayn seminar keçirilib. Seminarda fakültənin dekanı Əşrəf Ələkbərov çıxış edərək bildirib ki, onlayn tədbirin əsas məqsədi tələbələrin startap layihələrinin hazırlanması və təqdimatı sahəsindəki bilik və bacarıqlarını daha da artırmaqdan ibarətdir.

Sonra nazirliyin əməkdaşı Mehparə Məmmədova "Startap layihələrinin hazırlanması və təqdimatında biznes planların əhəmiyyəti, tərtibolunma qaydaları və biznes-plan nümunəsi" mövzusunda slayd materiallar vasitəsilə tələbələrə geniş məlumat verib. Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*Artıq dünya gündəmini tamamən məşğul edən pandemiyanın iqtisadi və sosial həyatda vurduğu zərərlərin minimuma endirilməsi və dövlətlərin bu sahədə gələcək fəaliyyət istiqamətləri strateqlərin müzakirə mövzularına çevrilib. Bu mənada, sosial izolyasiyanın qaçınılmaz olduğu və ölkələr arasındakı iqtisadi-ticarət əlaqələrinin də ciddi şəkildə məhdudlaşdığı bir dövrdə ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə kənd təsərrüfatının inkişaf prioritetləri yeni əhəmiyyət qazanır. Ölkəmizdə, eləcə də muxtar respublikamızda bu sahənin inkişafı, pandemiya və pandemiya sonrası dövrdə qarşıda duran vəzifələrin uğurlu həlli üçün ciddi tədbirlər görülür. Bəhs olunan dövrdə muxtar respublikamızda bu vacib sahənin inkişafı ilə bağlı maraqdoğuran məsələlər barəsində mütəxəssis fikirlərini öyrənmək üçün Naxçıvan Dövlət Universitetinin dosenti, aqrar elmlər üzrə fəlsəfə doktoru Dilsuz Qasımovla həmsöhbət olduq.*

# Kənd təsərrüfatının inkişafı qarşıdakı dövrdə də diqqət mərkəzində olacaq

***– Dilsuz müəllim, hazırda yaşadığımız period kənd təsərrüfatının inkişafına necə təsir göstərə bilər?***

– Pandemiya ölkələrin iqtisadiyyatına, o cümlədən kənd təsərrüfatına, eləcə də ərzaq təhlükəsizliyinə mənfi təsir göstərməkdədir. Bu gün Azərbaycanda və onun tərkib hissəsi Naxçıvan Muxtar Respublikasında dünyada yayılmış pandemiya əleyhinə ciddi qabaqlayıcı tədbirlər görülərək insanların sağlamlığı qorunur, həmçinin əhalinin sosial rifahının yaxşılaşdırılması üçün tədbirlər həyata keçirilir, postpandemiya dövründə iqtisadiyyatın inkişafı üçün proqramlar qəbul edilir. Belə ki, "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamında bu sahənin əhəmiyyəti açıq şəkildə bir daha göstərilib. Bu sərəncamın icrası ilə bağlı tədbirlər planında iqtisadi artıma və sahibkarlığa dəstək bölümünün ikinci bəndində postpandemiya dövründə iqtisadi artımın yeni modelinin tətbiqi istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda daxili tələbin genişləndirilməsi vasitəsilə iqtisadi artımın sürətinin və məşğulluğun qorunması, yeni iş yerlərinin açılması məqsədilə digər sahələrlə yanaşı, kənd təsərrüfatı və emal sənayesinin də ortamüddətli dövrdə dövlətin iqtisadi siyasətinin əsas prioriteti kimi müəyyən olunmuşdur. Həmin bu sahələrin inkişafının dövlət tərəfindən dəstəklənməsi və özəl investisiyaların cəlb olunmasının təşviq edilməsi məqsədəuyğun hesab edilir. Şübhəsiz, digər dövlətlərdə olduğu kimi, ölkəmizdə də vətəndaşların sağlamlığı üçün həyata keçirilən izolyasiya tədbirləri xarici ticarət əlaqələrini zəiflətməklə, ərzaq məhsullarının da idxal-ixracını müvəqqəti olaraq məhdudlaşdırıb. Belə şəraitdə həyat üçün ən zəruri maddi nemətlər istehsal edən aqrar bölmədə çoxşaxəliliyin təmin olunması hazırkı dövr üçün ən kritik qərarlardan biridir. Muxtar respublikamızda da ərzaq təhlükəsizliyi sahəsində indiyə qədər həyata keçirilmiş tədbirlər bundan sonra yeni aktuallıq qazanacaq. Çünki əhalinin ilboyu keyfiyyətli yerli ərzaq məhsulları ilə təmin edilməsinin alternativinin olmadığına qlobal pandemiya dövründə bir daha şahidlik etdik.



***– Muxtar respublikamızda kənd təsərrüfatının davamlı inkişafına hansı faktorlar təsir edir?***

– Kənd təsərrüfatı həssas sahədir. Burada müasir elm və texnologiyanın tətbiqi ilə yanaşı, torpaq, su, iqlim ehtiyatları, yaşıllıq və meşə əraziləri kimi heç bir şeylə əvəz olunmayan amillər də vardır. Bundan əlavə, dünyada insan sayının çoxalması və aqrar sahədə rəqabətədavamlılığın artırılması üçün resurslardan intensiv istifadə də, son nəticədə, öz təsirini göstərən amillərdəndir. Buna görə də aqrar kimi çətin və strateji sahədə əldə olunan səviyyə, haqlı olaraq, ölkələrin inkişaf göstəricisi hesab olunur. Bu baxımdan kənd təsərrüfatının ölkəmizin iqtisadiyyatında əhəmiyyəti və qeyri-neft sektorundakı yeri yaxın tariximizdə onun inkişafını şərtləndirən əsas amillərdən olub. Müstəqillik dövründə dövlətimiz əhalinin ərzağa olan tələbatını, əsasən, öz imkanları hesabına ödəyə bilməsi üçün regionlarda infrastruktur sahələrinin yaradılması və emal sənayesi istiqamətində mühüm islahatlar reallaşdırıb və bu proses indi də davam edir. Yeni texnikalar alınır, dövlət tərəfindən bu sahəyə subsidiyalar ayrılır, aqroxidmət sahələri yaradılır, güzəştli şərtlərlə gübrə, yanacaq, lizinqlər verilir. Bütün bu amillərin nəticəsində ölkəmizdə və eləcə də muxtar respublikamızda aqrar sektorda məhsul istehsalının artması müşahidə olunur.

Muxtar respublikamızda aqrar sahənin davamlı inkişaf faktorları arasında, şübhəsiz, ölkəmizdə ilk dəfə aparılmış torpaq islahatlarını qeyd edə bilərik. Naxçıvanda kəndlini torpağa bağlayan bu mühüm tədbir blokadada olan bir diyarın ərzaq təhlükəsizliyinin təmin olunmasının bünövrəsini təşkil edir. İnsanların torpağa olan münasibətini tamamilə dəyişdirən bu islahatların ardınca aqrar sahənin inkişafı məqsədilə qəbul olunmuş dövlət proqramlarının uğurlu icrası nəticəsində muxtar respublikada əkin dövriyyəsinə qatılan torpaq ərazisi artdı. Həmçinin geniş suvarma şəbəkəsi yaradıldı, arqar sahənin müasir texnika ilə təminatı əsaslı surətdə yaxşılaşdırıldı. İstehsal olunmuş kənd təsərrüfatı məhsullarının son istehlakçıya çatdırılması, onun bazar tələbatına uyğun şəkildə reallaşdırılması üçün yaradılmış soyuducu anbar təsərrüfatı naxçıvanlı torpaq mülkiyyətçilərinin əməyinin rentabelliyini artıran əsas faktorlardandır. Yüz illərdir, Naxçıvan torpağının aqrokimyəvi xüsusiyyətlərinə və buradakı təbii iqlim göstəricilərinə uyğunlaşmış yerli bitki sortlarının qorunub saxlanılması, toxumçuluq təsərrüfatının, süni mayalanma mərkəzinin yaradılması, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması və kompleks təsərrüfatların qurulması üçün dövlət tərəfindən görülən tədbirlər isə aqrar sahənin dayanıqlı inkişafında mühüm amil olub. Məhz bütün bu məcmu amillərin təsiridir ki, bu gün pandemiyanın tüğyan etdiyi bir dövrdə Naxçıvandan dünyaya kənd təsərrüfatı məhsulları ixrac edə bilirik.

***– Bəs pandemiyadan sonrakı dövrdə kənd təsərrüfatının inkişafı üzrə hansı prioritetlər gözlənilir?***

– Şübhəsiz, pandemiya iqtisadi və sosial həyatda bir çox dəyişikliklərə də səbəb oldu. Bu, eləcə də kənd təsərrüfatına da yeni baxış formalaşdırdı. Artıq yeni dünyada insanların sağlamlığının qorunması üçün dövlətlərin görəcəyi tədbirlər arasında kənd təsərrüfatında intensiv metodların tətbiqinin stimullaşdırılması, sığortalanma mexanizminin yaxşılaşdırılması, ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının təşviqi, müasir texnologiyalara əsaslanan iri təsərrüfatların yaradılması prioritet olacaq. Ayrıca olaraq hər bir vətəndaşın keyfiyyətli qidalara fiziki və iqtisadi çıxış imkanlarının təmin olunması, əsas ərzaq malları üzrə ixracdan asılılığın azaldılması, ərzaq məhsullarının mövsümi, hava və digər amillərlə bağlı olan risklərdən qorunması üzrə aqrar sığortanın təkmilləşdirilməsi də gələcəkdə diqqətdə saxlanılacaq. Bu, muxtar respublikamızda əvvəl də belə olub, qarşıdakı dövrdə də kənd təsərrüfatına yönəlmiş dövlət qayğısının əsas istiqaməti olacaq. Ötən ay Naxçıvanda "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni kompleksinin istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Dünyada hansı proseslərin baş verməsindən asılı olmayaraq, kənd təsərrüfatı mütləq inkişaf etdirilməlidir. Bu gün dünyada o ölkələr pandemiya ilə rahat mübarizə apara bilirlər ki, həmin ölkələrdə ərzaq təhlükəsizliyi təmin olunub".***

***– Müsahibə üçün sağ olun!***

**Əli CABBAROV**

# Naxçıvan bağlarının ləziz barı

***Elə ki fəsillərin gözü, nazlı, qəmzəli, bolluq rəmzi bahar zərif əlləri ilə elimizi, obamızı gülüstana döndərdi, qışın sərt soyuğundan sonra Günəşin zərrin şəfəqləri ilə təbiət oyandı, üz tuturuq yaşamaq-yaratmaq həvəsimiz olan torpağımıza. Əkirik, becəririk, halal zəhmətimizlə ərsəyə gətirdiyimiz taamların bir qədərini süfrələrimizə düzüb ağız şirinliyi ilə deyə-gülə yeyir, qalanlarını isə dükan-bazarda sataraq özümüzə gün-güzəran qururuq. May-iyun aylarının gəlişi isə xüsusən böyükdən-kiçiyə hər bir naxçıvanlı daha ürəkdən arzulayır. Çünki ilin bu vədəsində məhz qədim oğuz yurduna məxsus, süfrələrimizin yaşıl donlu qonağı göycə yetişir. Bu günlərdə muxtar respublikanın paytaxtı Naxçıvan şəhərindən ta ki ucqar dağ kəndinədək hansı evdə qonaq olsan, süfrədə ilk olaraq məhz dadlı-tamlı göycə görərsən.***



Bəli, hələ qədim zamanlardan Naxçıvanda həyətyanı sahələrdə yetişdirilən, tərkibindəki C vitamininin miqdarına görə fərqlənən, yüksək alıcılıq qabiliyyəti olan göycə insanların sevimli meyvəsinə çevrilməklə, həm də bu diyara şöhrət qazandırıb. Aparılan tədqiqatlardan belə nəticəyə gəlinir ki, göycənin tərkibində olan turşuluğun, qələviliyin və şəkərliliyin nisbəti onu pəhriz meyvələr qrupuna aid etməyə əsas verir. Nəzərə alanda ki, müasir dövrümüzdə insanlar sağlam qidalanmağa, immunitetlərini möhkəmləndirməyə, pəhriz saxlamağa üstünlük verir, o zaman göycənin əhəmiyyəti daha çox özünü göstərir. Diyarımızda hər həyətdə bu məhsul ərsəyə gəlsə də, göycə yetişdirməklə müntəzəm məşğul olanlar kifayət qədərdir. Onlardan biri də bu sahədə artıq özünəməxsus imic formalaşdıran Babək qəsəbə sakini Vahid Rəsulovdur.

Ötən günlərdə təsərrüfat sahəsi ilə tanış olmaq üçün ünvana üz tutarkən yolboyu abadlaşan küçə və xiyabanlarımızın əhatəsində salınan yaşıllıqları seyr edə-edə düşünürəm: Sanki, ana təbiətin bəşəriyyət üçün ən böyük ərməğanlarından olan ağaclar da insan kimi canlıdır. Ağac da insan övladı kimi "dünyaya göz açandan" qulluq, qayğı, nəvaziş istəyir. Onu böyüdüb, boya-başa çatdırıb xeyrini görəndə, meyvəsindən dadıb, kölgəsində sərinlənərək mənəvi rahatlıq tapanda zəhmətinin hədər getmədiyini dərk edirsən...

Az sonra bir ucu Culfaya uzanan magistral yola çıxırıq. Avtomobilin günəş şüalarının bərq vurduğu pəncərəsindən yaşıl libasa bürünən əkin ərazilərinə, zəhmətə qatlaşan insanlara heyranlıqla tamaşa edirəm. Görünən odur ki, onları heç bir təbiət şıltaqlığı öz sevimli məşğuliyyətlərindən ayıra bilməz.

Çox çəkmir ki, üz tutduğumuz ünvana yetişirik. Maşından düşüb dizədək ucalan, sərin yaz mehinin təsiri ilə dəniz kimi dalğalanan yamyaşıl otların arasıyla üzüyuxarı əkin ərazilərinə doğru addımlayıram. Budur, xeyli uzaqdan ucu-bucağı görünməyən bağ-bağat içərisində ağacların "qəlbini qırmadan" nəvazişlə barını yığmağa çalışan torpaq adamı diqqətimi çəkir. Başı işə o qədər qarışıb ki, ona yaxınlaşmağımı hiss etmir. Salam verir, "İşiniz irəli, məhsulunuz bərəkətli olsun", – deyirəm. Ömrünün-gününün çoxunu ağac əkməklə, min bir zəhmət bahasına ərsəyə gətirdiyi bağa qulluq etməklə keçirən Vahid kişi nizamla saldığı ağacların birindən ehmalca bir ovuc göycəni qoparıb mənə uzadaraq: "Buyur, bağımızın məhsulundan nübar et", – deyir.

Naxçıvanın brendinə çevrilən, adı dilləri, özü elləri bəzəyən göycənin dadına baxdıqdan sonra söhbətə başlayırıq. Dahi şairimiz Nizami Gəncəvinin "Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan" ifadəsini xatırladan təsərrüfatçı deyir ki, bütün yaradıcı sahələr kimi, bağ salmaq, ağac əkmək də insandan böyük zəhmətlə yanaşı, bu işə dərindən bələdçilik, incəlik, dəqiqlik tələb edir. Əkilən ağacların yüksək məhsuldarlığa malik olması üçün, ilk növbədə, münbit torpağa malik ərazi seçilməli, tinglər vaxtlı-vaxtında suvarılmalı, dibləri boşaldılmalı, budanmalı, zərərvericilərə qarşı qabaqlayıcı tədbirlər görülməlidir. Tingləri, əsasən, erkən yazda – fevral-mart aylarında, payızda isə oktyabr-noyabr aylarında əkmək məsləhətdir. Artıq 15 ildir ki, günümü bu ağaclara qulluq etməklə keçirirəm və şükürlər olsun ki, yaxşı gəlir hesabına ailəmin də maddi vəziyyəti günü-gündən yüksəlir.

Təsərrüfatçı 4 hektara yaxın ərazidə illərdir, ərsəyə gətirərək yaxşı qazanc əldə etdiyi göycənin yetişdirilmə xüsusiyyətlərindən də söhbət açaraq deyir ki, bu ağac çınqıllı, daşlı və həddindən artıq bərk gilli torpaqları sevmir. Əgər belə torpaqda göycə ərsəyə gətirmək fikrindəsənsə, mütləq alçaya calaq etməlisən. Ancaq unutmaq olmaz ki, yaxşı məhsul verməsi üçün göycə ağacı qüvvətli və yumşaq torpaqlarda əkilməlidir. Geniş bağın salınması üçün ərazinin dərindən şumlanıb hazırlanması vacibdir və əsas diqqət torpağın becərilməsinə verilməlidir. Ağac cavan dövründə çox budanmalıdır ki, meyvə və hasil olanadək istənilən formanı ala biləsən. Bu mənada, ağacı özü böyüyər, – deyib başlı-başına buraxmaq olmaz. Əks halda cavan şivlər yalnız ağacın çətiri altında əmələ gələr ki, bu da, son nəticədə, məhsuldarlığın aşağı düşməsinə səbəb olar. Təcrübəmə əsaslanıb söyləyə bilərəm ki, göycə ağacı salındıqdan sonrakı iki il ərzində sürətlə böyüyür, üçüncü ildə məhsula düşür, sonrakı illərdə yaxşı bar verməyə başlayır. Barverən ağacların kökləri torpağın üst qatlarını tamamilə tutduğu üçün



həmin qat qüvvədən düşə, məhsuldarlıq azala bilər. Bunun üçün bağlara payızda, torpaq şumlanan dövr ərazinin miqyasına uyğun miqdarda fosfor və kalium gübrələrinin verilməsi vacibdir. Bundan başqa, göycənin yaxşı məhsul verməsi üçün onu mütəmadi suvarmaq lazımdır.

Öz işinin mahir bilicisi olan Vahid kişi qeyd edir ki, muxtar respublikada əkin-biçin üçün münbit torpaqların bol olması, su sarıdan qıtlıq hallarının yaşanmaması yüksək məhsuldarlığa yol açır. Onu da vurğulamaq yerinə düşər ki, əvvəllər ağacları zərərvericilərdən qorumaq və digər aqrotexniki işləri həyata keçirmək üçün lazım olan vasitələr, dərman preparatları çətin tapılırdı. Lakin "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlayandan bu problemimiz də aradan qalxıb, indi müəssisənin satış mərkəzindən kənd təsərrüfatında istifadə olunan istənilən ləvazimatı sərfəli qiymətə əldə edə bilirik.

Məhsulumuzu satmaq üçün də müntəzəm şəkildə yarmarkalar təşkil olunur, ölkəmizin digər bölgələrindən də Naxçıvan göycəsinə xüsusi maraq var. Bu marağın artmasında, ümumiyyətlə, göycə əkin-biçini ilə məşğul olan təsərrüfatçıların həm əməklərinin qiymətləndirilməsində, həm də məhsullarını satıb yaxşıca gəlir götürmələrində muxtar respublikamızda keçirilən ənənəvi göycə festivalları da böyük rol oynayır. Müxtəlif bölgələrdə yaşayan həmvətənlərimiz tərəfindən sifarişlər qəbul edən zaman qədim diyarımızın bu neməti barədə eşitdiyim ağızdolusu rəğbətli sözlər bir elli kimi məni çox qürurlandırır.

*Təsərrüfat sahəsində olduğum müddətdə ayrı-ayrı insanların buraya gələrək yetişən məhsullardan sifariş verdiyi diqqətimi çəkir və öz-özümə dodaqaltı pıçıldayıram: "Əbəs yerə deyilməyib ki, insan bir işə etməsə həvəs, bütün əziyyəti gedəcək əbəs". Görünən odur ki, Vahid Rəsulovun illər öncə böyük həvəslə təsərrüfat yaratmaq üçün çəkdiyi zəhmət əbəs yerə getməyib, ilbəil öz bəhrəsini daha çox verir. Elə bu xoş təəssüratlarla da, təsərrüfat adamına yaxşı bazar olsun, – deyib, göycə bağından ayrılıram...*

**Nail ƏSGƏROV**

# Günümüzün qəhrəmanları: dəmir iradəli dəmirçi qadınlar

*Onun haqqında kültəpəli rəfiqəmdən eşitmişdim. Həmin kənddə yaşayan bir xanımın metal kəsim ustası olaraq çalışması, sözün düzü, məni çox təəccübləndirmişdi. Əslində, heç vaxt şahidi olmadığıma görə inanmamışdım bir xanımın bu ağır və yorucu peşə ilə məşğul olduğuna. Elə bu maraqla da həmin xanımı – Mehparə Məmmədovanı tanımaq üçün üz tutdum onun çalışdığı "Gəmiqaya Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinə.*



Bizi xoş rəftarla qarşılayan kompleksin təmsilçisinə "Şərq qapısı" qəzetindən müsahibə üçün gəldiyimi, o an xanımın adını unutduğumdan – burada bir xanım çalışır, metal kəsim ustası, həmin xanımla söhbət etmək istədiyimi bildirdim. Öyrəndim ki, burada 200-ə yaxın işçinin içində bir yox, sən demə, iki xanım usta çalışır. Səliqəli bir otaqda səbirsizliklə həmin xanımların yolunu gözləyirəm. Budur bir az keçmiş zərif qəhrəmanlar çöhrələrində təbəssüm otağa daxil olurlar. İlk görüşdə xoş təəssürat bağışlayan bu iki xanımla söhbətimizin çox maraqlı alınacağına əmin oldum.

Çətin peşələrdən olan dəmirçilik işini bəzi kişi ustalardan daha yaxşı görməyi bacaran, artıq peşəkara çevrilən Mehparə xanımın həyat yoluna nəzər saldıq öncə. 16 ildir ki, kişilərlə çiyin-çiyinə çalışan Mehparə Məmmədova 1968-ci ildə Babək rayonunda anadan olub. O, orta məktəbi bitirdikdən sonra ailə həyatı qurub. Taleyin acı hökmü 10 günlük körpəsiylə birlikdə ailəsini başsız, övladını isə atasız qoyub. Valideynləri də erkən yaşlarından vəfat edən Mehparə xanım övladını böyütmək üçün müxtəlif işlərdə çalışsa da, aldığı məvacib ehtiyaclarını ödəməyib, maddi cəhətdən çətinliklərlə üzləşib. Beləliklə, üz tutub "Gəmiqaya Sənaye Kompleksi" MMC-yə. O, 2005-ci ildən burada metal kəsimi ilə məşğuldur. Deyir ki, övladım kişilərə məxsus işdə çalışdığımı eşidəndə kövrəlmişdi. Orada işləməyimi istəmirdi. Bu peşənin qadın üçün heç də çətin olmadığını söyləsəm də, inanmırdı. Bir gün onu da iş yerimə gətirdim. Ondan sonra oğlum, necə deyərlər, sevinirdi ki, anası öz işinin öhdəsindən bacarıqla gəlir, yoldaşları arasında hörmət sahibidir.

Mehparə xanım onu da vurğulayır ki, ilk dəfə burada çalışmağa başlayanda çox çətinlik çəkirmiş:– Təbii ki, əvvəllər hər şey bu qədər asan və rahat deyildi. İndi müəssisə yeni avadanlıqlarla təchiz olunub, bütün iş prosesi onların köməyi ilə icra edildiyindən gördüyümüz kimi, çox güc tətbiq etməyə ehtiyac qalmır. Sağ olsun, yoldaşlarım, əvvəl bir gündən heç bir çətinlik çəkməyə imkan verməyiblər. Hər zaman köməkliklərini göstəriblər.

Mehparə Məmmədova burada çalışdığı ilk illərdə ona həyan olan yoldaşlarına minnətdarlığını bildirərək deyir ki, mənə bütün texniki təhlükəsizlik qaydalarını onlar öyrətdilər. Burada qazandıqlarıma görə onlara borcluyam. Mənimlə yanaşı, burada çalışan digər zərif cinsin nümayəndəsi Sabirə xalaya da dayaq olublar. O məndən də əvvəl başlayıb bu işə.

Üzünə qonan xoş təbəssümlə gözlərindəki yorğunluğu gizlədə bilməyən Mehparə xanım söhbətinə belə davam edir: – Qızım, yəqin ki, sən də bu işin kişi sənəti olduğunu düşünürsən. Düzdür, dəmirçiliklə tarixən kişilər məşğul olublar. Təkcə dəmirçilik deyil, müxtəlif peşələr var ki, onun qadın işi olmadığını deyirlər. Lakin bu gün hərbi sahədə, polis sistemində, gömrük işində, nəqliyyat sektorunda nə qədər qadının çalışdığını, özü də nümunəvi fəaliyyət göstərdiklərini görürük. Hər bir insan, istər qadın, istər kişi olsun, qulpundan yapışdığı işin öhdəsindən gəlmək üçün qəlbən o işə bağlansa, nə çətinlik qalar, nə də mümkünsüzlük.



Mehparə xanım bu anda bir qədər dayanır, nəyisə xatırlayaraq sözünə davam edir:

– Bilirsiniz ki, muxtar respublikamıza ölkəmizin digər bölgələrindən, həmçinin xarici ölkələrdən çoxlu qonaqlar gəlir, Naxçıvanın gəzməli-görməli yerləri ilə yanaşı, diyarımızda fəaliyyət göstərən emal və istehsal müəssisələrində də olurlar. Sanki sözləşiblərmiş kimi, onların çoxunun bizim sexə girərkən təəccübləndiyini görürəm. Elə bil sual üzlərindən oxunur: Heç qadın da dəmirçilik edərmi? Düzdür, biz dəmirçilərin keçmişdə düzəltdikləri təsərrüfat alətlərini hazırlamırıq. Ancaq lazım gəlsə, bu işin də öhdəsindən gələ bilərik.

Dəmirçi xanım gülümsəyərək buraya ilk dəfə gələn türkiyəli qonaqlardan birinin ona yaxınlaşdığını, hazırladığı məhsullara təəccüblə baxdığını xatırlayaraq deyir ki, işimi çox bəyəndi, heyrətini gizlətməyib "əhsən!" dedi.

Bu zaman söhbətə Sabirə İsmayılova da qoşulur. Öyrənirik ki, 1957-ci ildə Naxçıvan şəhərində anadan olan Sabirə xanım elə kiçik yaşlarından kişilərin məşğul olduğu peşələrə maraq göstərib. 1974-cü ildən Naxçıvan Elektrotexnika Zavodunda çalışıb. Sonra taleyini bu sənətə bağlayıb. "Gəmiqaya Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində usta kimi çalışan Sabirə xanım deyir ki, əvvəllər məni çox qınayırdılar. "Özünə iş tap, bu, qadın işi deyil", – deyən tanışlar, qohumlar indi mənimlə qürur duyurlar. Çünki, necə deyərlər, aslanın erkəyi, dişisi olmaz. Vicdanla, sevgiylə, hünərlə görülən hər iş gözəldir.

O, söhbət etdikcə düşünürəm ki, artıq ələbaxımlılıq dövrü arxada qalıb. Kim çalışır, ailəsini dolandırır, mənsub olduğu dövlətə, yaşadığı cəmiyyətə xeyir verirsə, hörmətizzət sahibi olur. Çəkdiyi zəhmət də bəhrəsiz qalmır. Başlıcası isə hər bir zəhmət adamı öz dəyərini dərk edir.

Peşəmlə əlaqədar muxtar respublikada fəaliyyət göstərən bir çox emal və istehsal müəssisələrində olmuşam. Öz zəhmətsevərliyi ilə çalışdıqları kollektivin böyük hörmətini qazanan xanımlarla görüşmüşəm. Onların hamısı əmək cəbhəsində qazandıqları uğurları, yaradılan şəraitlə əlaqələndiriblər. Elə bu gün həmsöhbət olduğum qadınlar kimi...

Ancaq onu da deməliyəm ki, bu qadınların zəhməti məni daha çox cəlb etdi. Ona görə də həmin qadınlarla birgə çalışan Zəfər Məmmədov və Asəf Quliyevlə də söhbət etdim. Hər ikisi qadınların öz peşələrinə ürəkdən bağlandıqlarını, işə məsuliyyətlə yanaşdıqlarını dedilər. Birgə çalışdıqları müddət ərzində öhdələrinə götürdükləri işləri can-başla, səliqə və keyfiyyətlə yerinə yetirmələrindən ağızdolusu danışdılar. Bir daha günümüzün dəmir iradəli dəmirçi qadınlarının hünərinə "əhsən" dedik.

Söhbətimizin sonunda qadınların əməyilə hasilə gələn dəmir tikinti materialları ilə tanış olmaq istədim. Məmnuniyyətlə razılıq verdilər. Dəmir kəsimi sexində dəmirdən hazırlanmış tikinti materialları səliqə ilə bir tərəfə yığılmışdı. Həmsöhbətlərim bildirdilər ki, uzun illər öncə Naxçıvanda belə tikinti materialları hazırlanmırdı. Bu gün onlara böyük tələbat var. Biz də çalışırıq ki, bu tələbatın məhz yerli, özü də keyfiyyətli məhsullar hesabına ödənilməsinə, az da olsa, köməyimiz dəysin.

*Sexdən ayrılarkən zərif cinsin nümayəndələrinin kişi sənətində çalışdıqlarının heç də təəccüblü olmadığı qənaətinə gəldim. Niyə? Xalqımızın qəhrəmanlıq abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanını xatırlayırsınız? Burla xatınlarımız, Banu Çiçəklərimiz kişilərlə birlikdə qurşaq tutub, döyüşlərə atılıb, at yarışlarına qatılmırdılarmı? Bu gün bütün sahələrdə olduğu kimi, istehsalatda da öz zəhmətsevərliyi, fədakarlığı, iradəsi ilə hünər göstərib ad-san qazanan müasir Azərbaycan qadını da onların xələfləri deyilmi?*

**Gülcamal TAHİROVA**

## Komanda-qərargah təlimi başlayıb

*"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı" na əsasən bir neçə birləşmə və hissənin cəlb edilməsi ilə ərazidə komanda-qərargah təlimi başlayıb.*



Müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilən birləşmə və hissələrin bölmələri cəmləşmə və döyüş təyinatı rayonlarına, atəş və start mövqelərinə çıxarılıb.

Xüsusi qoşun növləri birləşmələrinin də cəlb edildiyi təlimdə müasir rabitə və avtomatik idarəetmə sistemlərinin tətbiqi ilə məhdudgörmə şəraitində tapşırıqların yerinə yetirilməsinin operativliyi və səmərəliliyi, qarşılıqlı fəaliyyətin və hərtərəfli təminatın təşkili üzrə tədbirlər yerinə yetirilir.

Mayın 22-dək davam edəcək təlimdə şəxsi heyətin düşmənin kəşfiyyat-diversiya, hava hücumu, raket və artilleriya zərbələrinə qarşı fəaliyyəti məşq etdiriləcək.

**Nəriman NƏCƏFOV**

## Bakı Musiqi Akademiyasının professoru onlayn seminar keçib

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələri üçün onlayn seminar təşkil edilib. "Romantizm cərəyanının yaranmasına dair" mövzusunda seminar Bakı Musiqi Akademiyası Musiqi tarixi kafedrasının müdiri, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi Ülviyyə İmanova tərəfindən keçilib.




Fakültənin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov fakültədə belə seminarların təşkilinin artıq ənənə halı aldığını qeyd edib. Vurğulanıb ki, təşkil edilən ustad dərslər müəllim və tələbələrin peşə bacarıqlarının formalaşmasında, təcrübələrinin möhkəmlənməsində xüsusi əhəmiyyətə malikdir.

Professor Ülviyyə İmanova XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Avropa ədəbiyyatında, sonra isə musiqi və təsviri incəsənətdə təşəkkül tapmış romantizm cərəyanından danışıb. Bu ədəbi cərəyanın yaranma səbəbləri və o dövrdə mövcud olan ictimai-siyasi mühit təhlil edilib. Alman və İtaliya bəstəkarlıq məktəblərindən söhbət açan professor F. Şubert, R.Şuman, F. Şopen, K.M. Veber, F.List və digər məşhur bəstəkarların əsərlərinin janr və üslub xüsusiyyətlərini diqqətə çatdırıb.

Sonda müəllim və tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

**Səadət ƏLİYEVA**

## Naxçıvanda ilk dəfə olaraq süni mayalanma yolu ilə uşaq dünyaya gəlib



***15 may – Beynəlxalq Ailə Günündə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxsində Naxçıvanda ilk dəfə olaraq süni mayalanma yolu ilə uşaq dünyaya gəlib. Türkiyə və İranda müalicə alsalar da, effektini görməyən Quliyevlər ailəsinin 9 illik övlad həsrətinə son qoyulub.***

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxsin baş həkimi Kəmalə Qurbanovanın verdiyi məlumata görə, ailə Doğum Mərkəzinə müraciət edərək hərtərəfli müayinə və laborator analizlərdən keçib, 2019-cu il sentyabrın 15-də "Bakı Mərkəzi Klinika" MMC-nin həkim heyəti ilə birlikdə cütlüyə ekstrakorporal mayalanma xidməti tətbiq edilib. Tibbi prosedur Doğum Mərkəzinin və Mərkəzi Klinikanın həkim-ginekoloqu Mahirə İsmayılovanın iştirakı ilə həyata keçirilib. Hamiləlik dövrü mərkəzimiz tərəfindən ciddi şəkildə izlənilib və uğurlu nəticə əldə olunub. Doğulan oğlan uşağının çəkisi 3 kiloqram 400 qramdır, bütün instrumental və laborator müayinələrdən keçirilən körpə tam sağlamdır.

Qeyd edək ki, Doğum Mərkəzində zəngin maddi-texniki bazanın yaradılması belə bir uğura imza atmağa imkan verib. Göstərilən dövlət qayğısı nəticəsində 2018-ci ildə mərkəzin Ekstrakorporal mayalanma şöbəsinin fəaliyyətinin canlandırılması üçün lazımi hazırlıq işləri görülüb və kadrların hazırlanması üçün "Bakı Mərkəzi Klinika" MMC ilə birgə fəaliyyətə başlanılıb. 2 həkim-ginekoloq, 1 embrioloq, 1 həkim-rezident, 2 tibb bacısı 6 aydan 1 ilədək Mərkəzi Klinikada tam təkmilləşdirmə kursu keçib. 2019-cu ilin may ayından etibarən 4 nəfərdə inseminasiya olmaqla, 18 nəfər sonsuzluqdan əziyyət çəkən cütlüyə EKM xidməti göstərilib. Onların 3-də hamiləlik baş verib.

İlk uğurlu nəticənin qazanılması valideynlərlə yanaşı həm də mərkəzin həkim və orta tibb işçilərinə bayram ovqatı yaşadıb. Onlar Naxçıvan səhiyyəsi üçün uzun illər əlçatmaz olan ekstrakorporal mayalanma xidmətinin bugünkü uğurlu tətbiqinin məhz muxtar respublikada səhiyyənin inkişafına göstərilən hərtərəfli qayğının nəticəsi olduğunu bildirir, xidmətin yüksək səviyyəyə çatdırılması üçün bilik və bacarıqları daha da təkmilləşdirəcəklərinə söz verirlər. Doğuşu həyata keçirən baş həkimin müalicə işləri üzrə müavini Nəzakət Quliyeva 9 il övlad həsrəti çəkən bir ailəyə övlad səadəti bəxş etdikləri üçün hədsiz sevindiklərini söyləyir, əmin olduğunu bildirir ki, Naxçıvan səhiyyəsi sonsuzluqdan əziyyət çəkən digər ailələrə də övlad sevinci yaşada biləcək.

**Hüseyn ƏSGƏROV**
***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## Elan

"Gəmiqaya Taxıl Məhsulları" MMC muxtar respublikada fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının nəzərinə çatdırır ki, tələbatdan artıq istehsal olunmuş buğda, arpa və qarğıdalı məhsullarını aşağıda qeyd edilmiş qiymətlərlə satın alır:

*Buğda – 38 qəpik*
*Arpa – 35 qəpik*
*Qarğıdalı – 40 qəpik*

Satış üçün təqdim olunan məhsulun ödənişi yerində həyata keçiriləcək.

***Ünvan: Naxçıvan şəhəri, Şəhriyar küçəsi 60***
***Əlaqə telefonları: (060) 540-75-01, (070) 250-85-81***

### İtmişdir

Şərur rayonunun Cəlilkəndində yaşamış Səfiyev Qulu Abbas oğlunun adına verilmiş JN-90 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Yengicə kənd sakini Hüseynov Azər Müslüm oğlunun adına verilmiş JN-855 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Dəmirçi kənd sakini Kərimov Yusif Kərəm oğlunun adına olan JN-326A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Xanlıqlar kənd sakini Hüseynov Nazim Kazım oğlunun adına olan JN-45 nömrəli "Torpağa mülkiyyət hüququna dair dövlət aktı" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 368